# Yeni nəsillərə “Mən azərbaycanlıyam” örnəyi

**Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ədəbi-musiqili tədbir keçirilib. “Mən azərbaycanlıyam” adlı tədbirdə Azərbaycan Konservatoriyası nəzdində Musiqi Kollecinin tələbələri və Bakı məktəbliləri iştirak edirdi.**





Muzeyin “Məktəblərlə və ictimaiyyətlə iş” şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu tədbiri giriş sözü ilə açaraq Heydər Əliyev fenomeni, ulu öndərin sarsılmaz mübarizəsi, genişmiqyaslı fəaliyyəti haqqında danışıb. O, qeyd edib ki, vaxtilə ümummilli liderə ünvanlanmış iyirmi bir sual və onlara verilmiş cavablar böyük ürək, dərin zəka və qətiyyətli addımları ilə tanınan Heydər Əliyevin mənəviyyat, zövq dünyasını üzə çıxaran səmimi bir dialoqdur.

Qeyd olunan fikirlərin təsdiqi kimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif anlarını əks etdirən videorolik nümayiş etdirildi.

Daha sonra söz məktəblilərə, gənc istedadlara verilib. Bakı şəhəri üzrə yeddi məktəb və Musiqi Kolleci tələbələrinin iştirak etdiyi ədəbi-musiqili tədbirdə C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, S.Vurğun, M.Şəhriyar, M.Dilbazi, L.Əliyeva, R.Hüseynov, R.Yusifoğlu və digər yazıçı-şairlərin yaradıcılığından nümunələr və musiqi ifaları səsləndi.

Sonda iştirakçılar tədbirin layihə rəhbəri, Muzeyin Həmkarlar Təşkilatının sədri Ceyran Qənbərli tərəfindən sertifikatlarla təltif olundular.

***Qabil YUSİFOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 4 may.- S.8.